***Elçin QALİBOĞLU***
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi*
*e-mail:elcin.galiboglu@gmail.com*
*https://doi.org/10.59849/2309-7922.2025.2.55*

# OĞUZ ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏRİNDƏ TANRIÇILIQ GÖRÜŞLƏRİ

**Xülasə**

Oğuz atalar sözləri və məsəllərdə Tanrıçılıq görüşlərinin araşdırılması mahiyyətcə Oğuz türk düşüncəsi üstə köklənən, qədim türk məişətindən soraqları özündə yaşadan, köklü-köməcli, sanballı deyim siqlətli qənaətlərin çağımızın idrak ölçüsündən açımıdır. Bu örnəklərdə əcdad düşüncəsinin dastanlaşmış aqibətinə bütöv şəkildə baxmaq imkanı yaranır. Xarakterin, Tanrısal yönün biryolluğu, ömrün müxtəlif məqamları haqqında yetkin ifadəlilik, təbiət, təsərrüfat, məişət həyatındakı zəngin müşahidəçilik, əcdadın davranışlarına, düşüncəsinə uyğun gələn canlıların totemləşdirilməsi və s. baxışlar bugünümüzdə sabah üçün milli özünüdərk baxımından ciddi qənaətlər yaradır. "Tanrıçılıq görüşləri" adı altında bu baxışlar ümumiləşdirilir: xalqın özünəməxsusluğu, yetkinliyi, davranış fərqliliyi onun başqa xalqlardan fərqli sifətini yaradır.

Oğuz atalar sözləri və məsəllərdə bu kimi cəhətlərin qədimdən bəri yazıda, habelə, başlıcası, düşüncədə yol gəldiyinin, mahiyyətcə gen yaddaşında qaldığının, tarixin yeni dönəmində belə əhəmiyyətli hissəsinin xarakterlərdə yaşadıldığının şahidi oluruq.

**Açar sözlər:** Oğuz, atalar sözləri, məsəllər, milli özünəməxsusluq, qədimlik.

***Elchin GALIBOGLU***

## DIVINE BELIEFS IN THE OGHUZ PROVERBS AND SAYINGS

**Abstract**

The study of divine (Tengrism-based) beliefs reflected in Oghuz proverbs and sayings is essentially an exploration rooted in Oghuz Turkic thought, preserving traces of ancient Turkic life and expressing profound judgments that reflect the spiritual and intellectual experience of our ancestors. These examples allow a holistic view of the mythic destiny of ancestral thought. They display the unity of character and divine orientation, mature expressiveness regarding various stages of life, rich observation of nature, economy, and daily existence, as well as totemic reflections of beings consistent with ancestral behavior and worldview. All these perspectives generate valuable insights for national self-consciousness today and for the future.

Under the title “Divine Beliefs”, these views are generalized: the uniqueness, maturity, and behavioral distinctiveness of the people shape their distinguishing identity among other nations.

In Oghuz proverbs and sayings, we witness that such features have been transmitted through writing since ancient times, and more importantly, preserved in collective thought and genetic memory. Even in new stages of history, significant aspects of these characteristics continue to live within national character.

**Keywords:** Oghuz, proverbs, sayings, national identity, antiquity.

***Эльчин ГАЛИБОГЛУ***

**ВЕРОВАНИЯ ТЕНГРИАНСТВА В ОГУЗСКИХ ПОСЛОВИЦАХ И ПОГОВОРКАХ**

**Резюме**

Изучение Тенгрианских (Божественных) воззрений, отражённых в огузских пословицах и поговорках, по своей сути представляет исследование, основанное на Огузском тюркском мировоззрении, сохранившем следы древнего быта тюрков и выражающем глубокие философские суждения, восходящие к опыту предков. Эти примеры позволяют целостно осмыслить мифологическую судьбу древней мысли. В них проявляется единство характера и божественного начала, зрелое выражение взглядов на различные этапы человеческой жизни, богатые наблюдения над природой, хозяйством и бытом, а также тотемизация живых существ, соответствующая поведению и мировоззрению предков. Все эти аспекты создают важные выводы для национального самосознания как сегодня, так и в будущем. Под названием «Взгляды Тенгрианства» эти идеи обобщаются: самобытность, зрелость и поведенческое своеобразие народа формируют его отличительный облик среди других народов.

В огузских пословицах и поговорках мы наблюдаем, что подобные черты с древнейших времён передавались в письменной и, прежде всего, в мыслительной традиции, сохраняясь в генетической памяти. Даже в новые исторические эпохи значительная часть этих особенностей продолжает жить в национальном характере.

**Ключевые слова:** Огузы, пословицы, поговорки, национальная самобытность, древность.

**GİRİŞ.** “Oğuz atalar sözləri və məsəllərdə Tanrıçılıq görüşləri” adlı araşdırma üçün faktlar həm ayrı-ayrı “Oğuznamə”lərdə, həm də konkret buradakı mənbəyə əsasən izlənilə bilər. Hələlik sözügedən mövzunu əsasən özlüyündə əhatə edən “Oğuznamə” ilə yetərlənirik. Bu “Oğuznamə” XV-XVI yüzillərdə üzü köçürülən əlyazmasıdır, təxminən iki min atalar sözü və məsəldən ibarətdir. Kitabı tərtib edən, müqəddimə, lüğət və şərhlərin müəllifi S. Əlizadə bu haqda

yazır, ərəb əlifbası ilə yazılmış "Əmsali – Məhəmmədəli" yaxud "Məcməül-əmsali-Məhəmmədəli" adlı, vərəqləri çoxdan saralmış atalar sözü və zərbi-məsəllər toplusunun birinci səhifəsi "Haza kitabi – Oğuznamə" (Bu, Oğuznamə kitabıdır") sözləri ilə başlanır: "Buradakı Oğuz atalar sözü və məsəlləri biri-birinin ardınca düzülmüşdür. Doğrusu, ilk dəfə həmin əlyazma ilə tanış olarkən ürəyim az qala dayandı. Sanki qiymətli incilərlə dolu mücrünü salıb sındıracağımdan qorxdum... Məni təəccübləndirən ulu babalarımızın bu müdrik dəfinəsinin ümumi sanbalı, misilsiz elmi-mədəni dəyəri idi. Onlar əsrlərin, minillərin zülmətini yarıb keçmişdi... , yanğısı ilə nur saçan şamlar tək bu gün də ömrümüzün mənasını işıqlandırmağa qadir idi" (2, 4).

Bu mövzuda müxtəlif məsələlərdən danışılsa belə, ilk növbədə "Oğuznamə" dedikdə "Oğuz mifi" anlayışının açımını vermək məqsədəuyğun sayıla bilər. "Oğuz mifi" anlayışı ilə bağlı S.Rzasoyun fikrinə diqqət yetirək: "Oğuz mifi" anlayışı haqqında apardığımız araşdırmaların monoqrafik nəticələrinə daim təkmilləşdirmə yolu ilə təsbit etdiyimiz tezislərə görə, Oğuz mifi sintaqmatik mətn hadisəsi olaraq ümumi türk mifinin diferensial mətn tipidir. Belə ki, mif düşüncə və ya mətn hadisəsidir. Bu, uyğun olaraq, mifin paradiqmatik və ya sintaqmatik səviyyələri deməkdir. Oğuz mifinin sintaqmatik mətn paradiqmaları geniş mətnlər korpusu ilə təmsil olunur. Bununla bərabər, Oğuz mifinin sintaqmatik mətn korpusu bütövlükdə Türk mifologiyasının sintaqmatik struktur tipini təşkil edir. Oğuz mifi düşüncə hadisəsi olaraq Türk mif metamodelinin paradiqmasıdır. Başqa sözlə, Oğuz mifoloji mətnləri Türk mifologiyasının mətn korpusunun struktur hadisəsini təşkil etdiyi kimi, Oğuz mifoloji düşüncəsi də Türk mifologiyasının struktur nüvəsində durur. Bu baxımdan Oğuz mifoloji düşüncəsi bir tərəfdən Türk mifoloji düşüncə invariantının paradiqması, o biri tərəfdən Türk mif metomodelinin tərkibini təşkil etmiş struktur tipidir" (4, 20).

Sözügedən kitabın dəyərliyi onun araşdırma mövzumuza uyğun olaraq ümumiləşdirmə, əsas mənbə siqlətində olmasıdır. Bütün seçilən örnəklərdə (atalar sözü və məsəllərdə) bu və ya başqa ölçüdə (şəkildə) Tanrıçılıqdan danışılır. Kitabın hicri 1009, miladi XVI yüzilin sonlarında, XVII yüzilin əvvəllərində əslində başqa mənbədən üzünün köçürüldüyü düşünülür. S.Əlizadə müşahidəsini bölüşür, "Kitabi-Dədə Qorqud"la "Oğuznamə" üçün müştərək örnəklər var: "Qonşu haqqı-Tanrı haqqı", "Qadir Tanrı verməyincə ər bayımaz", "Allah-Allah deməyincə işlər önməz" (2, 10) və s.

Kitabda "Allah" anlayışı ilə bağlı çoxlu atalar sözü verilib. İlk atalar sözlərindən birində deyilir: "Atalar ayıtmış: "Həq təala müsəlmanların ğürbətdə xəstəlıqdan və yigitlikdə ölümdən və pirligdə yoxsulluqdan saqlasun". Habelə, "Allah işin bilir", "Allah yüzi yoxsullığın göstərməsün", "Allah-təala qullarını qaşıq bir düşmən şərrindən saqlasun", "Allah sağ gözü sol gözə möhtac eyləməsün", "Allah öldürmədigin kimsə öldürəməz", "Od qoyup, otluğa Allah-allah dimə" və s.

"Oğuznamə" mətnlərinə uyğun yerlərdə Allahla bağlı anlayışların sonradan əlavə edilməsi, əvəzlənməsi ilə bağlı Tanrıçılıq görüşlərinin ifadəsi olan atalar sözü və məsəlləri təqdim etdikcə məsələ aydınlaşacaq.

"Ər oldur dura; durana var" (2, 23) atalar sözündə türk düşüncəsində ərin – kişinin Tanrısallıq keyfiyyətinə vurğu edilir. Yenilməzlik, mərdlik, halallıq, sədaqətlilik, təmənnasızlıq və s. kimi müsbət keyfiyyətlərin daşıyıcısı olan türk kişisi həmişə ətrafdakıların sevgisini, etibarını qazanıb.

"İmanlu qullarda yatluluq yoqdur" (2, 23).

Burada mahiyyətcə bəndə sayılanın Allaha olan qeyd-şərtsiz təslimçiliyindən, hər an taleyini bəlirləyənə sadiqliyindən danışılır. Ancaq Tanrıçılıqda türk insanının Tanrısı ilə bir olması var, Tanrısının qulu yox, əslində dostudur.

**Ər – Kişi Tanrı kimi.** "Etdügün eymək ərlük degildir" (2, 23).

Burada türk kişisinin – ər sayılanın, özünü ər sayanın gördüyü bütün gözəl işləri adi qeyri-adilik sayılır; özünü öymək ərə xas keyfiyyət sayılmır. Çünki ər üçün bu kimi işlər onun əslində həyat tərzidir. Türk düşüncəsində lovğalanan ər – ər deyil. Məsəldə türk ərinin tanrılıq keyfiyyəti üzə çıxır. Tanrıya xaslıq – ərin, kişinin sözü, əməli bütövlüyünün təsdiqi kimi meydana çıxır. Deməli, türk düşüncəsində ərlik odur ki, gözəlliklərini başqaları görsün, öysün, bundan qətiyyən lovğalanmasın.

"Eyüdən yaramazlıq gəlməz" (2, 24).

Türk insanı düşüncədə olduğu kimi əməldə də yaxşılıqdan yoğrulmalıdır. Düşüncə ilə əməl arasında uçurum olmamalıdır. Ata sözünün mayasında duran hikmət budur. Yəni türk insanı özündə tanrılıq keyfiyyəti daşıdığı, özünün tanrılığına inandığı dərəcədə sifətini dəyişə, pis adam ola bilməz.

"Oğlan evləncək: "Bəy oldum" sanur" (2, 24).

Yuxarıda təqdim olunan türk əri üçün keyfiyyət göstəricisi burada da şübhəsiz, ölçüdür. Tanrısallıq daşıyıcısı olmaq - əcdadın qərarında dəyişməz olacağına inamdır. Bəy olmaq ailə dəyərinə tabe olmaq deməkdir. Deməli, ailəçilik adlı müqəddəs dəyərin qoruyucusu olmaq, bir an da məsuliyyətdən yayınmamaq gərəkdir.

Kitabdakı örnəklər əlifba sırası ilə verilməyib, ona görə də uyğun misalların təqdimində adda-buddalıq yaranır.

"İstəyən Tanrısın bulur" (2, 34).

Ata sözündə Tanrıya münasibət ifadə olunur. Tanrı obrazı insanın ağlında yaranır, obrazlaşır, yaşadılır.

"İtin issi var isə tavşanın Tanrısı var" (2, 34).

"Əgri otur, toğru söylə" (2, 34).

Burada doğruçuluğun önə çəkilməsi türkün fitrətən doğruya, həqiqətə meyillənməsi anlamındadır. Türk birsifətliyi, yalnız düz danışmaq üstə köklənməsi mahiyyətcə onun həyat tərzi olub.

"Ümməti – Məhəmmədin sözi kəsadlığa düşməsin" (2, 38).

Məsəlin - diləyin İslam dininə yönəlik deyildiyi aydındır. Tanrıçılıq ruhunu ifadə edən, sonradan bu cür islamlaşan deyimlər az deyil. "Oğuznamələr"də bu

yöndə məsəllər ikili xarakterdədir. Bu da xalqın öncədən Tanrıçılıq ruhunda yaşadığını, sonradan İslamçılıq dönəmində həmin haldan tamamilə çıxmadığını, çıxa bilmədiyini göstərir. Ancaq dinin ardıcıl yayılması nəticəsində Tanrıçılıq məzmunlu alqışlar, inanclar altşüurda yaşamağa başlayır.

"Eşəgin dişini, kosanın yaşını, Allahın işini yenə Allahdan başqa kimsə bilməz (2, 40).

Öncəki iki obrazın (eşşək, kosa) başına gələcəkləri yalnız Allahın bilməsi inancı İslam dönəminin təəssüratıdır. Alın yazısı mifinin yayğınlaşdığı zamanda Allahın insanın həyatda gördüyü nə varsa, hamısına (hətta "eşəgin dişini, kosanın yaşını, Allahın işini" bilməsi) nəzarət etməsi, başına gələcəkləri öncədən bəlirləməsi qənaəti Tanrıçılıq düşüncəsinin sozaldığını göstərir.

"Ata - ana verdigü könüllü, Tanrı verdigi doyumluqdur" (2, 42).

Məsəldə Tanrı obrazının türk mifoloji düşüncəsində hər şeydən ucada durduğu inamı tam yəqinləşir. Tanrı insana nə verirsə, tam verir. Söhbət burada imkandan və gerçəkləşən ömürdən gedir.

Məsəldə Tanrı-Allah təzadı duyulurmu? Təsəvvür etmək olur ki, Tanrı obrazı ilə bağlı ağıldakı qənaət Allahçılıq (İslamçılıq) dönəmində nisbətən fərqli ifadə oluna bilərdi. Məsəlin ilkin biçiminin necə olduğunu təxmin etmək çətindir, ancaq islamçılıq dönəmində Tanrı adının işlənməsi əski düşüncənin ağıllarda oturuşduğunun göstəricisi kimi nəzərə alına bilər.

"Ötən qüdrət oyunıdır, bilməyənə qaz gəlür,
Tanrunun nəimətü çoq, biməyənə az gəlür" (2, 44).

Məsəlin mayasında Türk Tanrıçılığı ilə İslam Allahçılığının ortamı var; belə ki, Türk Tanrıçılığında dünya yaradılışında iştirak edən əcdad özü hər şeyin mahiyyətcə yiyəsidir. Bir tərəfdən Tanrı nemətlərinin çoxluğunu görmək, şikayət etməmək düşüncəsi, başqa tərəfdən nə varsa, insanın nəyə əli, imkanı çatırsa, dinsayağı "şükür etmək" ölçüsü görünür. Ə.Hüseynzadə yazır, Oğuz atalar sözlərində, hikmətlərində oğuzların dünya, zaman, insan, tayfalar haqqında fəlsəfi görüşləri, təqvim mifləri öz əksini tapmışdır. Ditsin nəşr etdiyi 400 atalar sözündə Oğuz, Dədə Qorqud adına çoxlu hikmətli kəlamlar, atalar sözləri verilmişdir. Oğuznamə şeirlərində Dədə Qorqud, Oğuz kağan, Bayındır, Qazan və başqa Oğuz qəhrəmanları öyülür, hələ dastanlaşmamış qəhrəmanlıq səhnələri təqdim edilir. Bu şeirlər Oğuz bədii düşüncəsindən xəbər verir. Həm də bu Oğuz şeirlərindən türk poeziyasının inkişaf yolunu izləmək olur. Qeyd edək ki, bu şeirlər də atalar sözləri və hikmətlər kimi tarixi-mifoloji, bədii informasiya baxımından öz qiymətini itirməmişdir (3, 236).

"Oğuz yumindan baymışdır" (2, 49).

Yum – alqış, xeyir-dua anlamındadır. Məsəldə Oğuzun yetdiyi məqamdan dolayı arxayınlaşmasına işarə olunur. Həm də yumun Oğuz dünyasında həyatın ruhsal (mənəvi) özülündə durduğu təsəvvür olunur. Oğuz burada mahiyyətcə el, yurd anlamında dərk olunur.

"Ər ğeyrətçün toğar" (2, 50).

Oğuz dünyasında ərin – kişinin ərdəmliyi önə çəkilir. Oğuz dünyagörüşündə ərin – kişinin döyüşkənliyi, vicdan əsasında yaşaması, halallığa əsaslanması hər şeydən öndədir. Bu, əslində Oğuz təsəvvüründəki Tanrı keyfiyyətləridir. Tanrıdan Oğuz bunu istəyir, həm də istədiyi kimi olur. Təsadüfi deyil ki, Oğuz insanı öz yaratdığı dünyada Tanrılığını sübut edir. Tanrılığına inanmayan Türk isə Oğuz sayılmır.

Buna oxşar başqa məsəllər də var:

"Ərə bir hünər yetər" (2, 51).

"Azacıq aşım – ağrısız başım" (2, 51).

Məsəldə Oğuzun – Türkün mənasız davranışlardan çəkinməsinin gərəkliyi vurğulanır, kökündə əcdadın – Türk insanının qida mədəniyyətinin ifadəsi özünü göstərir. Çox yemək – xəstəlikdir, gödənin (qarının) əsiri olmaqdır. Az yemək – qaydalı yemək deməkdir, xəstələnməməkdir, əksinə, sağlamlıqdır. Öncələr sağlıq mədəniyyəti sarıdan işlənən ifadənin sonralar işlənmə çevrəsi genişlənmiş, əcdad həyatının bütün sahələrinə aid edilmişdir. Burada artıq insanın davranışlarını yüz ölçüb bir biçməsinin qaçılmazlığı diqqətə çəkilir.

"Ayıq-oyuq, dəli-tolu2 (2, 51).

Yerində oyur-oyur oynayan, xüsusən gənc türk insanı fitrətən yenilməyi sevməyən olmuşdur. Məsələn, Dəli Domrulun ilkin dönəmdəki halı Tanrıçılıq dönəmi sayıla bilər, çılğındır. Dəli-doluluq Oğuz insanının halındadır, igidliyin başlıca nişanəsidir. Burada hər cür təhlükələri gözünün altına almaq, əslində saymamaq, təhlükəni aşmaq, ölümlə öcəşmək, həm də türk xislətinə uyğun olaraq öldürməyi sevməmək var.

Yerində oyur-oyur oynayan döyüşkən türk həm də ayıqdır. Türkün Tanrılıq keyfiyyətlərindən biri də yurd qoruyuculuğudur.

Məsəllərin çoxunda nəsihətçilikdən ötə hökmlülük var. Bunun da kökündə türk xarakteri durur – Tanrıçılıq ruhundan gələn.

Türk xarakterində vaizlik, hər yetənə nəsihətçilik yoxdur. Türk ruhu ardıcıl ömürləşdirməyi sevir, yaşantıların ipə-sapa düzülməsi aqibətdəndir.

"Enmədigin yerə çıqma" (2, 52).

"Ağac qurur, dövran dönür" (2, 52).

"Ata baqma, tona baqma, cana baq,
Gir könül içindəki soltanqa baq.
El atdığı daş uzak gedər" (2, 53).

Bu örnəklərdə dünya görmüş bilginlərin ruhu yaşayır. Hər cür özgələşmə çeşidlərinə qarşı dura biləcək, insanın insana sevgisini, elin ruh birliyini ifadə edən bu qənaətlər çağımızda da ardıcıl fikir yiyələrinin, bu ruhda yeni örnəklərin yaranmasını istəyir.

"Eşəgin bərk bağla, andan Tanrıya ismarla" (2, 53).

Məsəldə hər şeyin taleyinin Tanrının əlində olmasına inamla yanaşı habelə insanı məsulluğa kökləmək var. Əcdadın ağlında dünyanı indiki ölçüdə anlamaq

şübhəsiz, yox idi, ola bilməzdi, ancaq fitrətin həmişə öndə olub. Bu örnəklərin çoxundakı firti duyumlar yüzillər, minillərdir doğruluğunu qoruyub saxlayır.

"Udsuz ev, qutsuz ev" (2, 53).

Ud – qədim türkcədə "Abır-həya", "Qut" isə "Tanrı, ruh, güc" anlamındadır. Qafiyəcə də gözəl alınan məsəldə İnsan-Tanrı bağının olduğu ortadadır. Udun – abır-həyanın yiyəsi, gerçəkləşdiricisi türk insanıdır, bu ölçüyə uyğun yaşanan evdə Qut, yəni Tanrı var. Tanrı qutludur, yəni ruhludur. O deməkdir ki, insan – qutludur, yəni tanrılıdır. Göründüyü kimi, əski türk düşüncəsində İnsandan qıraqda Tanrı yoxdur.

"Ata binmək can üstündə can bəsləməkdir" (2, 53).

Atın türkün həyatındakı rolu onun təsərrüfat həyatından tutmuş mədəni həyatına kimi hər sahədə gərəkliyini ifadə edir. At – türkün dostu, can yoldaşı ölçüsündə də öyülüb. Bu, o deməkdir ki, türkün tanrıçılıq baxışlarının ardıcıl formalaşmasında ata münasibət də ciddi rol oynayıb: atın ilk növbədə savaşlardan türkü sağ çıxarması imkanı, vasitəsi olması, eləcə də həyatının bütün sahələrində "sağ əli" - təsərrüfat həyatında əvəzsiz yardımçı olması diqqət çəkir. Türk sanki atın belində olarkən özünü Tanrısına daha yaxın sayıb. Atın özünün "canlı" yox, "can" sayılması onun ruhlu sayılması anlamındadır. "Can üstündə can" hər ikisinin mahiyyətcə eyni statusda görülməsinə, qəbul edilməsinə işarədir. "Koroğlu" dastanında Koroğlunun Qırata öygüsü bunu sübut edir. At yiyəsini duyur, onun qırımından nə istədiyini sanki anlayır.

Habelə türk mifoloji düşüncəsində atın obrazlaşdırılması ardıcıl olaraq təbiətin mənalandırılması ilə bağlıdır. Bu, artıq totemləşdirmədir.

"Əkən biçər, qonan köçər" (2, 53).

Məsəldə türkün oturaq və köçəri həyatına işarə var: burada türkün "köçəriliyi" Avropamərkəzçiliyin inad etdiyi kimi deyil, mahiyyətcə türkün öz böyük, tarixi arealında – öz məskənində köç etməsi kimi nəzərdə tutulmalıdır.

"Əkənin biçməsi" – uzunmüddətli məskunlaşmanı, təsərrüfat həyatının daha geniş ölçüdə yaranmasını, türk həyatının oturaqlığını, "qonanın köçməsi" – müəyyən səbəblərdən (münasibətlər, təsərrüfat həyatının uğursuzluğu və s.) bir yerdə çox oturaqlaşmadığına işarə edir.

Bütün hallarda məsəlin mahiyyəti türkün öz yurdunda – həyatında rast gəlinən əhvalları tam ifadə etdiyini göstərir.

"İşi işləyən könüldür" (2, 55).

Burada əcdadın hər bir işə ürəklə yanaşması nəzərdə tutulur.

Əcdadın həyata, təbiətə yanaşması ürəkdəndir, yaradıcıdır.

Türkün ürəkli (könüllü) davranışının kökündə duran özgürlüyüdür – Tanrısal davranışıdır. Burada onun qətiyyəti ifadə olunur, bunu da yaradan fitrətən inamlı olmasıdır.

"Oğruləyin dustdən yegdir düşmən" (2, 56).

Məsəldə dost sayılan oğrunun mahiyyətcə düşmən olduğu vurğulanır. Tanrıçılıqda insanın tanrısallığı – onun içdən təmiz olmasına inamla bağlıdır. Bu keyfiyyətlərə malik olmayanın tanrısallığı baş tutmaz.

Düşmənlik türk idrakında ilk növbədə özünə yağılıq kimi anlaşılır. Özünə dost olmayanın, özünün yaxşı-pis keyfiyyətlərini tanımayanın başqasına, başqalarına yaxşı – dost olmasına inam olmur.

“Ulilar sözin tutmayan ulayu qalır” (2, 57).

Ulunun – qədimin sözünün tutulması – Tanrının sözünün tutulması kimi anlaşılır. Ulu sözü – törə sözüdür, dəyişməzdir. Ulunun Tanrıya tay tutulması – Əcdadın Tanrı sayılmasına, dünya yaradılışında onun iştirakına inamdan gəlir.

“Ulayu qalmaq” – yalquzaqlıq anlamındadır. Buradakı tənhalıq Boz qurdun tənhalığı (tənhalıqda qüdrətin ifadəsi) deyil, tamamilə çarəsizliyi işarələyir.

Ulu sözü – Tanrıdan soraq verir, insana tanrılığını tanıdır, birsifətli, halal, ailəcanlı olmağı tələb kimi qarşıya qoyur.

“Uzun yaşın ucı ölümdür” (2, 58).

Türk mifoloji düşüncəsində ölüm həyatın tərkib hissəsi kimi anlaşılır. Ölümün təbii (doğal) qəbul edilməsi qənaəti burdandır. Ölümün qaçılmazlığı əcdadı kədərləndirsə də, sarsıtmır, həyatdan – yaşamaqdan küsdürmür.

“Dədə Qorqud”da Qorqud dilindən söylənilir:

“Gəlimli, gedimli dünya,
Son ucu ölümlü dünya.
Əcəl aldı, yer gizlədi,
Son ucu ölümlü dünya” (1, 250).

Əcdad təfəkküründə ölüm olayının qaçılmazlığının dərki onun Tanrılıq xislətinə mane olmur, əməlinin ölümsüzlüyünün onu yaşadacağına inanır.

“Dədə Qorqud”dakı “Qanturalı boyu”nda Tanrı adıyla Allahın varlığı (Türk insanının ömrünün müddətini müəyyən etməsi) artıq ictimai düşüncədə Tanrıçılıqdan Allahçılığa doğru əvəzlənmənin göstəricisi kimi anlaşılmalıdır.

“İki qardaş savaşmış, əbləh gerçək sanmış” (2, 58).

İçində, halında Tanrılıq keyfiyyəti görən Türkün bir-biri ilə savaşması Əcdad ağlında mümkünsüz sayılmışdır; Məsəlin tarixinin – ulusal qaynağının qədimlərə dayanmasını təxmin etmək olar. Baxmayaraq ki, tarix boyunca türklərin bir-birləri ilə savaşmalarının (Teymurla Bəyazidin, Şah İsmayılla Sultan Səlimin və b.) şahidiyik. Məsəlin məna yükünün dərinliyi ortadadır; ən azı belə bir gerçəkliyin baş vermə ehtimalının da (hətta gerçəkliyinin də) ulusal xarakter baxımından aşılmasının mümkünlüyünə inam ifadə olunur.

“Akçayı tavara ver, assıyı Allahdan um” (2, 58).

Axçanın (gümüş pulun) davara verilməsi işin öncəsi kimi anlaşılır, Allah (Tanrı) fayda verəcəkmi? Bu məsəlin ilkin variantı varmı? Artıq burada İslamdan gələn Allah obrazı aydınca görünür. Yəni hər şey Allahdan asılıdır. İstəsə bərəkət verər, istəməsə yox. Allah nə yazıbsa, o da olacaq.

“Ər əri sınar, münafiq Tanrıyı sınar” (2, 59).

Buradakı "münafiq" sözü ərəbcədən gəlir, mənası "kafirlərin ən pis olanı"-dır. Ərin əri (kişini - türk döyüşçüsünü) sınaması doğal (təbii) sayılmalıdır, ancaq münafiqin Tanrını (burada Allahı) sınaması uyğun sayılmır. Göründüyü kimi çağın düşüncəsindəki İslamdan gələn Allah obrazı Tanrı kimi təqdim olunur. Əslində Allah obrazı artıq əvəzedici kimi ağıla oturmaqdadır, kafirin Allahı sınamasının əhəmiyyətsizliyinə məsəldə işarə var.

"Adlu kişi adından qorqar, adsız kişi Tanrıdan qorqmaz" (2, 60).

Qədim məsəl olduğu görünür. Adlı kişi – Türk ənənəsinə xas olaraq igidliyinə görə adlanandır, deməli, həyatı görən, dərk edəndir. Adlı kişinin adından qorxması – burada məsuliyyətini bilməsidir. Məsəldəki "Qorxmaq" – gerçək ağıldakı mənanı vermir.

"Adsız kişinin Tanrıdan qorxmaması" – məsuliyyətsizliyinə işarədir, yəni "Dədə Qorqud"dakı kimi 15 yaşında belə ad almayan, əslində ərlik məqamına yetməyəndir.

Əcdad düşüncəsində Tanrıdan çəkinmək – özündən çəkinmək anlamındadır. Türk mifoloji düşüncəsində Tanrı – Türk İnsanının özüdür; Əcdad Tanrı ilə üz-üzə qalır, onu anlamağa çalışır, anladıqca var olur.

"Od küllə saqlanır" (2, 60).

Qədim məsəldir, Tanrıçılıq dövrünün məhsuludur.

Fiziki odun ta qədimdən qorumaq məqsədi ilə külün içində saxlanılması əlverişli idi. Odun küllə qorunması – odluğunu təsdiq edir, burada kül vasitədir, "Oddan kül qalar" məsəlinin tamam tərsinədir. Odun Türk düşüncəsində qutsal (müqəddəs) sayıldığı aydındır.

"Od imandandır" (2, 61).

Odun iman sayılması – oda inamı ifadə edir. Odun içi təmizləyici keyfiyyəti var; burada iç – insanın daxili aləmidir, fiziki sayılanın mənəvi cəhəti üzə çıxır. Məsələn, qədim türklərin tonqal ətrafında oturarkən, ya da oynayarkən, şənlənərkən yaşadıqları hal onların iç dünyasının necə dəyişdiyini göstərir. Od – inam səviyyəsində əcdadın əhvalına müsbət təsir edir, onun xarakterini formalaşdırır, ətrafda baş verənlərə münasibətini yaradır, ölçü olur. Odun isidicilik keyfiyyəti ilə yanaşı əcdadın ağlında onun ruhsallığı yaranır. Günəşə sitayişin kökündə bu amil dayanır. Əcdad üçün Günəş ilk növbədə isidici xüsusiyyətə malik idi. Əcdad ağlının imkanları artdıqca anlayırdı ki, Günəşin aktiv dövründə təbiətdə canlanma yaranır, həyat cəlbedici olur, hər yer yaşıllaşır, onun qidalanması üçün hər şey yaranır, yetişir. Günəşə sitayiş artdıqca qədim insanlar, o cümlədən türklər Günəşi çağıran nəğmələr yaratdılar, bu yöndə rituallar formalaşdı, Günəşin ağılda, düşüncədə obrazlaşdırılması başlandı. Bu yöndə inamın mayasında duran Günəşin ruhsal (insani) qəbul edilməsi idi. Ruhsallıq – mənəvilik önə keçdikcə fiziki keyfiyyət arxa plana keçdi.

"Ər ləğəbilə anılur" (2, 61).

Türk düşüncəsində ər obrazı Tanrılıq keyfiyyəti daşıyır: birsifətli, halal, döyüşkən, yenilməyən... Türk ərinin ləqəbi onun döyüş meydanında, ərlik yarışında

qazandığı halal adıdır. Bu və ya başqa olayla bağlı yaranan adın mahiyyəti ərin sanki əyninə biçilmiş olur. Məsələn, "Dədə Qorqud"dakı Buğac buğanı yıxdığına görə Buğac adını qazanır.

Ərin Tanrılıq keyfiyyəti həm də andına dönük çıxmamaqla şərtlənir. Ər – biryolluq aqibətinə bağlı olur, heç bir maneə onu yolundan döndərə bilməz: Türk düşüncəsində Tanrılıq elə budur: xarakterin dəyişməməsi, ardıcıl ömrə yiyəlik, ailəyə bağlılıq, bir qadının ömürlük əri olmaq, qadını "Başım baxtı, evim taxtı" saymaq, xətaya yol verəcəyi halda qılıncına doğranacağı ilə bağlı and içməsi, özünə hökm etməsi, hökmü yerinə yetirməyə hər an qərarlı, inadlı, iradəli olması...

"El yelimlü Bitiyi oqur" (2, 62).

Elin – yurd insanlarının sınaqdan çıxmış, ömür yaradan bitiyə bağlanması Ulusun (xalqın) aqibətini yaradır. Qədim türkün Tanrıçılıqla bağlı bitiyi (kitabı) olmayıb. Ayrı-ayrı dastanlarda, xalq yaradıcılğı örnəklərində Tanrıçılıq görüşləri ifadə olunub. "Yelimlü Bitiq" – burada sanballı, biryolluq, Törənin olduğu sistemli qanun kitabıdır.

Məsəl təbii olaraq konkretliyi ifadə etmir, ancaq yerlə-göylə əlləşən, təbiətin mahiyyətini fitrətən dərindən anlayan, özüylə dünya arasında ilahi bağ yaradan, ruhunun keyfiyyətlərini duyan, aşkarlayan, özüylə bir olan əcdadın içinin məntiqini ifadə edir.

"Ay var ikən yıldıza nə minnət?" (2, 63).

Məsəldə Günəşin və Ayın qədim türk inancında tutduğu bənzərsiz rol konkret ifadə olunur. Azərbaycan folklorunun müxtəlif janrlarında, inanclarda, ayrıca olaraq Novruz düşüncəsində Tanrıçılığın ifadəsi olaraq Novruz mətbəxində - müxtəlif şirniyyatların biçimlərində səma cisimlərinin obrazlarına rast gəlirik. Şəkərbura aya, qoğal Günəşə bənzədilir, paxlavanın dörd künclü olması dörd fəslə işarədir. Qoğalın üstündəki saysız dənəciklər (küncüt tumu və s. səpilir) ulduzları işarələyir. Beləliklə, burada Ayın Tanrı obrazında təsəvvür olunduğunu görürük. Aya minnət burada "minnətdarlıq" anlamındadır. Əcdadın ağlında Aya diləkdə bulunmaq, istəyinin gerçəkləşməsini istəmək ona olan inamla bağlı idi. Ay varkən bu diləyi çoxsaylı ulduzlardan istəmək uyğun sayılmırdı. Əcdad ona ən yaxın olan ulduzu böyük, Tanrı sayırdı. Azərbaycan türk miflərində Ay oğlan, Günəş isə qız sayılır. Günəşin qız sayılması onun ilk növbədə saçaqlı olması ilə bağlıdır, həm də əcdadın məntiqinə görə gündüzlər çıxdığına görə qızdır, şüaları telləridir. Ay isə gecə çıxır, qaranlığı yarır, işıqlandırır, tam qaranlıq olmasına imkan vermir, Günəşdən fərqli olaraq saçları yoxdur, deməli, oğlandır.

Tanrıçılıqdan gələn məsəlin sonradan İslamda "12 imama yalvarınca bir Allaha yalvar" biçimində ifadə olunması diqqətçəkicidir. Burada Allahın hər şeydən, insandan təsəvvürəgəlməz dərəcədə güclü, habelə yaradıcı olması təsəvvürü var.

Bu məsəldə Türkün dünyagörüşünün mahiyyəti özünü aydınca göstərir:

"Bən nə vaqt ölürsəm, qiyamət o gün qopar" (2, 68).

O deməkdir ki, əcdad dünyadan ayrıldığı gündən başqa qiyamət tanımır. Ancaq dində yalnız Allahın müəyyən etdiyi vaxtda qiyamətin qopacağı deyilir. Bu məntiqlə hələ dünyada qiyamət baş verməyib.

"Buludlu gündə könül qaradur" (2, 69).

Buludlu gündə əhvalın yaxşı olmaması əcdad türkün təbiətlə birliyinə aydın işarədir. Təbiətin əhvalı əcdadın xarakterinə təsir edir. Bu, təkcə Türkün şəxsi davranışı, psixologiyası ilə bağlı deyil, hər şeydən öncə təsərrüfat həyatı, məişət qayğıları ilə bağlıdır.

"Bu gün yarına irməz" (2, 69).

Sabah əcdadın ağlında daha ümidli, fərqli, tamamilə bənzərsiz gün kimi təsəvvür edilir. İçində yaşadığı gün isə onun üçün azdır, məhduddur, imkanlarının kifayət qədər aşkarlanmamasıdır. Bununla belə məsəlin varlığı əcdadın həyata, dünyaya, özünə inamının ifadəsi kimi görünür. Əgər onun yaradıcı inadı olmasaydı, bu düşüncə də olmazdı.

"Bin haramdan bir halal yegdir" (2, 70).

Fikrimizcə, bu kimi məsəllər Türk Tanrıçılığının xarakterik örnəklərindəndir. Ona görə ki, Türkün başlıca cəhəti onun halallığıdır. Türkün Tanrısı elə Türkün xarakterinə uyğundur: halallığı haramçılığa qarşıdır, bu, onun həyat tərzidir. Halallığı məişətində özünü göstərir. O deməkdir ki, Türk mahiyyətcə varidatçı deyil. Türk döyüşməyə məcbur olsa da, qəsbkarlıq düşüncəsiylə yaşamır.

"Butraq diküb‌ buğday umma" (2, 72).

Butraq – "pıtraq" anlamındadır, yetişdikdə insanın paltarına yapışan bitkidir. Zəhmət çəkməyib də buğda ummaq olmaz. Əcdad düşüncəsində alın yazısı mifi yoxdur, anlayır ki, nə becərəcəksənsə, çalışacaqsansa, o qədər də bəhrəsini görəcəksən.

"Boğaz Tanrı yarlığasın deməz" (2, 73).

Məsəldə Tanrının səxavətcilliyinə, əksinə, insanın bunu anlamamasına işarə var. Ancaq göründüyü kimi, fikirdə ironiya yoxdur, nankorluğa görə cəza nəzərdə tutulmur. İnsanın həyatı anlaması, təbiətdən bəhrələnməsi iç-içə olduğundan Türkün Tanrısına ərki var. Bu ərk təbii bir proses kimi ömürləşir, onu hər şeydə məsuliyyətli olmağa kökləyir. Tanrı-insan ilişgilərini anlamayanlar özünü bilməyənlər sayılır.

Aşağıdakı məsəl bunun davamı kimi nəzərdən keçirilə bilər:

"Bilir bilür bilüri, bilməz nə bilir bilüri?" (2, 74).

"Bin il yerdə yatan bir duaya möhtacdır" (2, 76).

Məsəlin Tanrıçılıqdan çox İslam dönəmində yarandığını demək olar, ancaq hər iki dönəmin izlərini özündə daşıyır. İnsanın dua ilə yad edilməsi – onun xatirəsinin, adının anılmasıdır. İnsanın təbiətlə ruh birliyi var. Bu örnəklərdə tanrıçılıqla bağlı təsəvvürlərin ifadəsini, ayrı-ayrı mətnlərdə izlərini tapmaq olur...

"Bindükli bindügin Büraq sanur" (2, 76).

Mindiyinin əfsanəvi at Büraq sanılması kimi təsəvvür İslamçılıq düşüncəsi ilə bağlıdır.

Bəylər xəşmi Tanrı xəşmindən artıqdır (2, 78).

“Xəşm” – “acıq, qəzəb” anlamındadır. Bu düşüncə Tanrının halında qəzəbin “o qədər də çox olmadığını” göstərir. Buradan da Əcdadın Tanrıya münasibəti tam təsəvvür olunur. Türk insanının özünə, başqasına münasibəti – yanaşması onun Tanrısına münasibətini formalaşdırır, yəni Tanrı onun dünyaya, həyata, özünə münasibətinin ifadəçisi kimi anlaşılır, insanların davranış örnəyi olur.

“Tanrı kişiyə kəndüyə müti olmaz oğul versin” (2, 81).

Məsəldə Türk insanının müti olmamasının gərəkliyi vurğulanır. Oğulun mütiliyi onun qəhrəman olmaq imkanını əngəlləyir. Türk insanı özünə inananda, yerə-göyə sığmayan imkanlarını aşkarlayanda var olur.

“Tanrı bir, iş iki” (2, 81).

İşin mahiyyətini bilən qayğının həllini də tapır. Əcdad düşüncəsində nə tələsməmək, nə də gecikməmək əhvalı olub, potensiya, habelə qabiliyyət kimi indi də şübhəsiz, var. O deməkdir ki, Tanrıya tapınan türk müasir düşüncədə yaşayan məsəli xatırlatsaq, “Allah deyir, səndən hərəkət, məndən bərəkət” prinsipini əsas götürür. Əslində bunun da kökündə Tanrçılıq izlərini tapmaq mümkündür. Yəni məsəldə Tanrı ilə danışa bilmək ərki var.

“Tanrıyı göz ilə görmüş kimsə yoq, əqllə bilırlar” (2, 81).

Məsəldə Türk Tanrıçılığının xarakteri açılır. Dünyanın, Həyatın, İnsanın mahiyyətinin “əqllə”, əslində Ruhla dərk olunması fitrət işidir. Əcdadın o çağın ağıl imkanları ilə dünyanı qavraması duyumludur, ibtidai göründüyü dərəcədə məntiqlidir. Təəssüf ki, Tanrıçılıqdan sonrakı mərhələlərdə (Zərdüştlükdən sonra) dünya qavramı ilə bağlı axtarışlar ulusal duyumda - yeni bir dünyabaxış ölçüsündə aşkarlanmadı.

“Türk şərtlünin qulıdır” (2, 81).

Məsəldə Türkün verdiyi sözə əməl etməsinin qaçılmazlığına işarə var. Bu, xarakterin dəyişməzliyi məsələsidir, Tanrılıq xislətidir.

“Tanrı nişan urdığı quldan qorqmaq gərək” (2, 83).

“Tanrının insanı qul sayması” məsələsi İslam Tanrıçılığından, əslində Allahçılığından gələn düşüncədir. Türk düşüncəsində Tanrıya qul olmaq yox, Tanrıyla bir olmaq, Tanrılaşmaq xarakteri, düşüncədə imkan var.

“Tanrı nişan urdığı quldan qorqmaq” – Tanrının (burada Allahın) həmin şəxsi himayə etməsi anlamına gəlir.

Qədim türk düşüncəsində Tanrının insanı himayə etməsi düşüncəsi var. Seçilmiş insanlar dedikdə daha çox hakimiyyət adamları nəzərdə tutulurdu. Habelə düşüncə adamları, saf, təmiz yaşamış, insanların yaddaşında iz qoymuşların da Tanrının himayəsində olduğu düşünülürdü.

İnsanın bu və ya başqa səviyyədə durumunun Tanrı nəzarətində olduğu, yetdiyi uğurlara görə Tanrının rolu olduğu təsəvvür edilirdi.

“Dost əskiyəcək, Tanrı yenisün verir” (2, 99).

“Səfərə çıqanun işini Allah bilür” (2, 110).

Burada insanın alın yazısından asılılığına işarə olunur. Türk Tanrıçılığında isə insan mahiyyətcə taleyinin yiyəsidir, Tanrıdan asılı olduğu dərəcədə taleyi özündən asılıdır.

"Sovuq peyğəmbərə hörmət etməmişdir" (2, 119).

Məsəldə təbiətin insandan asılı olmayan qanunlarına işarə var.

Bu qənaətin İslam Allahçılığı dönəmində yarandığı aydındır.

Türk düşüncəsində Təbiətlə bir olmaq var. Bu, özünü bir çox mətnlərdə göstərir.

"Toğru gələn dolaşmaz" (2, 122).

Doğru danışmaq, doğru yaşamaq türk düşüncəsinin mayasındadır, yaşam tərzidir. Doğruçuluq – Tanrıya xas cəhətdir. Türk Tanrısının tələbinə uyğun doğru danışmağı, doğru yaşamağı həyatının mənası sayırdı...

"Toğruya Allah yardımçı" (2, 122).

Bu məsəl yuxarıdakı qənaəti bir daha təsdiq edir. Ancaq "Allah" məzmunu məsəlin İslam Allahçılığı dönəmində Tanrı məzmunundan çıxarıldığını, əvəzləndiyini göstərir.

Buna oxşar məsəllər:

"Toğru iki cahana yarar".

"Toğru tutulmayınca əgri bulunmaz".

"Toğru söyləyəni toquz para şərdən qovmuşlar".

"Toğru olan hər kişiyi toğru sanar" (2, 122).

"Tutulmayan oğru – bəgdən doğru".

"Toğruya zaval yoqdur" (2, 125).

"Toğmaqdan qalmayan ölməkdən qalmaz" (2, 125).

Məsəldə ölümün həyat qaydası olduğunun intuitiv duyumu və zəngin gerçəklik təcrübəsi var. Əcdad anlayıb ki, doğumla yanaşı ölüm var, bunu normal qarşılamaq gərəkdir.

"Eyibsiz bir Allah" (2, 126).

Məsəlin İslam sonrası daha da cilalandığı, normalaşdığı təxmin edilə bilər. Türk mifoloji düşüncəsində Tanrının dəyişməzliyi, güzəştsizliyi Türk xarakterinə bağlıdır. Əcdad Tanrısını özünün xarakterinə uyğun təsəvvür edib.

"Övrət (i) ölmək evi yıqılmaqdır" (2, 127).

Bu düşüncənin yaşının Tanrıçılıqla tən olduğu qadına yanaşmada tamamilə üzə çıxır. Türkün Tanrıçılıq baxışları onun ömrünün mənalanması, düzgün yönləndirilməsi üçün idi. Türk Tanrıçılığı türk xarakterinin ifadəsi olduğuna görə, onun qadına münasibəti də tanrısal idi. "Dədə Qorqud"da car edilən "Bəri gəl, başım baxtı, evim taxtı" alqışı türk insanının – əcdadın qadına yüksək dəyər verməsinin canlı ifadəsi idi. Göründüyü kimi, burada türk kişisinin bir qadınından söhbət gedir. Əgər çoxarvadlığa işarə olunsaydı, o zaman bu məsəl yaranmazdı. Çünki gerçək həyatda, ayrıca olaraq Tanrıçılıq dönəmində türk kişisi üçün ailə ciddi, bənzərsiz hadisə sayılırdı. Qadın türk ailəçliyində həmişə uca varlıq sayılıb.

Qədim türk ailəçiliyində çoxarvadlığın olmaması türkün xarakerinin insançılığından (Türkə xas ailə dəyərinin – ailəçiliyinin bənzərsizliyindən) gəlir.

Aşağıdakı məsəlin isə İslam Allahçılığından sonra obrazlaşdığını təxmin etmək olar:

"Övrətin əri ilk ərdir, ğeyrisi yamaqdır" (2, 127).

Göründüyü kimi, burada qadının əri öləndən sonra başqasına getməsindən danışılır. Onun həyatının ən yaxşı dönəmi birinci ərinin vaxtında olub. Əlbəttə, bu yanaşma, yəni əri öldükdən sonra ikinci kişi ilə ailə qurmaq Tanrıçılıq dövründə də ola bilərdi, ancaq İslam dönəmində geniş yayıldığı danılmazdır.

Aşağıdakı məsəllərdə də qadına inamsızlıq ifadə olunur:

"Övrətdən vəfa gəlməz".

"Övrətin ətməgi dizindədir".

"Övrət yapdığı ev yıqılmaz, övrət yıqdığı ev qurulmaz" (2, 128).

Allah adına, məzmununa deyilən bir çox məsəllər İslamçılıq dövrünün məhsulu kimi meydana çıxıb:

"Ğeybi Allahdan kimsə bilməz" (2, 129).

"Ğəribin kimsəsi yoq, Allahı vardır" (2, 129) və s.

**Qurdla bağlı.** "Qurd qonşusun yeməz".

"Qurd yanında quş da doyar" (2, 129).

Bu qənaətdə qurdla bağlı inancların izləri özünü göstərir. Qurdun anadangəlmə xisləti olan yırtıcılığı ilə yanaşı onun bərəkətli olması düşüncəsi var.

Qədim türk inanclarından olan totemizmdə ayrıca olaraq boz qurdla bağlı baxışlar özünü göstərir. Boz qurdun tənhalığı, habelə həmişə qüdrətli qalması, yenilməzliyi, əcdad türkə yol göstərməsi inancı onun totemləşməsinə səbəb olub.

Oxşar məsəllərə baxaq:

"Qurd anarsun qurd gəlür" (2, 129).

Burada qurdun totem olaraq əcdadın ağlında yaşadığına işarə var.

Yəni qurd əslində hər yandadır. Məsəldə qurdun xilaskarlığı (qurtarıcı olması) məsələsi də duyulur.

"Qurd ilə quzu yeyüb qoyun ilə şivən urma" (2, 129).

Burada isə adamın ikili xüsisiyyətini görürük. Qurddakı yırtıcılıq xisləti ilə adam xisləti arasında uyğunluq, oxşarlıq artıq mənfi planda izlənilir, təsdiqini tapır.

"Qoyunqa qaç deyüb, qurda qaç demə" (2, 133).

"Qurda inanma".

"Qurd ilə qoyunun nə oyunu var?"

"Qurd əniyi yenə qurd olur".

"Qurd toyduğu yeri qırq kərrə dolanur".

"Qurdun adı yavuz, arada tülkü var, baş kəsərlər" (2,131).

"Qəza gəlicək göz bağlanır" (2 ,132).

Bu təsəvvürdə alın yazısı mifi özünü göstərir, Tanrıçılıqla birbaşa bağlı deyil. Allahçılıq dönəmində əcdad ağlında hər şeyin taleyinin Allahın əlində

olması təsəvvürü formalaşdı və gücləndi. Buna yaxın bir məsəl-ifadə indi də işlənir: "Filankəsin basaratı bağlandı, heç nə eliyə bilmədi". Burada "basarat" – "bəsirət" deməkdir. Yəni daxili (iç) gözü bağlandı, nıtqı tutuldu, heyi, gücü qalmadı və s.

Beləliklə, bu kimi qənaətlərdə Tanrıçılıqdan sonra türk düşüncəsində Allahçılıq dönəmi gəlir ki, bu da əcdadın artıq özünə məxsus ilkin düşüncədən ayrılması dönəmidir...

"Qoca kafir müsəlman olmaz" (2,133).

Tipik məsəlin İslam dönəmində yarandığı aydındır. Burada son nəfəsində belə başqa baxışı qəbul etməyən, qədim ənənə, inanc əsasında yaşayan, özünəməxsusluğa, xarakter yaşadıcılığına, biryolluğa – Tanrıçılığa tapınan əcdad insanın "kafir" sayılması var.

"Qoca müsəlman kafir olmaz" (2, 133).

Əksinə, bu məsəldə isə artıq qocalmış müsəlmanın – İslamı qəbul etmiş şəxsin geriyə – "kafirliyə" qayıtmasının mümkün olmaması vurğulanır. Normalaşmış məsəlin ağılda, düşüncədə məcburi aqibət səciyyəsi daşıdığı danılmazdır.

"Qadir Tanrı verməyincə ər bayımaz" (2, 134).

Məsəlin "Dədə Qorqud"dan olduğu anlaşılır.

"Dədə Qorqud soylamış:

"Allah-Allah diməyincə işlər önməz,<br>
Qadir Tənri verməyincə ər bayımaz.<br>
Əzəldən yazılmasa, qul başına qəza gəlməz<br>
Əcəl vədə irməyincə kimsə ölməz" (1, 30).

Ünlü dastanın sonradan islamlaşdırılması katib qeydlərindən aydınca görünür. A.Fərəcova yazır, türk epik-mifoloji düşüncəsində teoqonik obrazlar sisteminin tədqiqi baxımdan ən zəngin qaynaqlardan birini çoxsaylı variantları olan "Oğuznamə" eposu təşkil edir. "Oğuznamə" dastanının bizə məlum olan variantlarının, demək olar ki, hamısı islami oğuznamələlidir. Onların içərisində yalnız biri – uyğur hərfləri ilə yazılmış "Oğuz kağan" dastanı bu baxımdan istisna təşkil edərək, İslamdan qabaqkı epik-mifoloji görüşləri əks etdirir. "Dədə Qorqud oğuznamələrində ad qoyma missiyası Qorqudun üzərinə düşür. ... Sakral mahiyyətli adqoyma mərasimi adın magik gücünə inamı əks etdirir. Qəhrəman ona verilən ada uyğun hərəkət edir. Dədə Qorqud oğuznamələrində nəticəni doğuran səbəb onu qabaqlayır, qəhrəman əməlinə görə ad alır" (5, 19).

"Allah" sözünün ardınca "qadir Tanrı" işlədilməsi düşüncədə Tanrı anlayışının ciddi biçimdə qalmasından xəbər verir. Alın yazısı qənaətinin vazkeçilməzliyi məntiqi – dinin məntiqinin əsaslandırılmasına ("Əzəldən yazılmasa, qul başına qəza gəlməz") hesablanıb.

Təbiidir ki, döyüşkən ruhlu türk əcdadın yenilməziyinin əsas səbəbi – içində Tanrılıq xislətini daşıması idi.

"Qonşu haqqı, Tanrı haqqı" (2, 135).

Qonşunun haqqının Tanrının haqqına tay tutulması məsəlin qədimliyindən, hansısa fikir dəyişikliyinə uğramadığından xəbər verir.

Türk özünə doğma, məsuliyyətli olduğu dərəcədə də qonşusuna məsuliyyətlidir, çünki əzəldən insanlığa əsaslanıb.

"Qorxu – xəyanətündür" (2, 136).

Bu məsəl türkün Tanrıçılıq görüşlərini tam ifadə edir. Türk xarakterindəki qorxusuzluq – cəsarət amili onun Tanrıçılığında özünü göstərir. Türkün birsifətliyinin səbəbi – onun halallığıdır. Əcdad alnıaçıqdır, pisliyi sevmir. Qorxunun xəyanət sayılması – Tanrıçılığın insanpərvərlik ruhunu aydınca göstərir. Qorxu insanın fizionomik cəhətdən özündən ayrılmasını yaradır, ruhunu sarsıdır, varlığını məhv edir. Türk anlayırdı ki, qorxu onun təbiətində yaşasa, var ola bilməyəcək.

"Qorxunun əcələ assısı yoqdur" (2, 136): Qorxunun əcələ faydası yoxdur, yəni ölüm adlı vazkeçilməz bir qayda var, bu, həyatın qaydasıdır, onsuz da hər kəs üçün zamanında gələcək. Əcdad türk bunu Allahçılığın məntiqinə uyğun anlasaydı, belə düşünməzdi, dediyi əsasda yaşamaq istəməzdi. Bu qorxmaz düşüncə əcdadın tarix boyunca qarşısıalınmaz savaşçılığını yaradıb.

"Kölənin, qaravaşın Tanrısı çomaqdır" (2, 143).

Məsəldə kölə, qaravaş sayılanın çomaqla ağıllandırılması, cəzalandırılması nəzərdə tutulur.

Əlbəttə, burada həm də ironiya var: Türk düşüncəsində təbiətdəkilərə belə sevgi duyğusu aşılanırsa, insanın insana münasibətində Tanrı adına çomaqdan istifadə edilməsi sonrakı yad baxışların diktəsi kimi meydana çıxır.

"Kədi siçanı Tanrıyçun tutmaz" (2, 148).

Tanrını anlamayanlar üçün deyildiyi təxmin edilir. Gerçək anlamda isə tamamilə məzmun yerini alır.

Türk düşüncəsində Tanrı onu anlayanlarındır. Tanrılıq xarakteri insandan yüksək duyum, varoluşun insanla bağlılığını bilməyi, bu əsasda yaşamağı hədəfləyir.

"Kişiyə əvvəl can gərək, andan cahan gərək" (2, 148).

Burada türk insanının canı – ruhu dəyərləndirməsi öndədir. Canına yiyə duran canlanır – ruhlanır, cahanlaşmaq (dünyalaşmaq) istəyir.

Canla bağlı əcdadın düşüncəsində təbiətə bağlı özünəməxsus təsəvvürləri əsas rol oynayır. Onun canı – təbiətdədir, təbiətdəkindədir.

Türkün Tanrıçılıqla bağlı düşüncələri mahiyyətcə ulusallığa bağlıdır, insanlıqla bağlıdır, deməli, ruhuna bağlıdır. Ruh insanlığın mahiyyəti ilə bağlı olduğu dərəcədə ulusallığı nişan verir.

Ulusal düşünən bəşəri düşünür deməkdir. Türkün düşüncəsi – fitrətinin ifadəsi idi, şübhəsiz, o çağın həyat təcrübəsinə əsaslanırdı, ancaq duyumu mənalı idi, yaşamına mənəvi güc verirdi, sabaha ümidləndirirdi, özgürlüyünü, döyüşkənliyini yaradırdı, varoluşunda, dövlət quruculuğunda ciddi rol oynayırdı.

Aşağıdakı məsəllərdə İnsan – Tanrı – Allah bağı – ifadəsi öncəki təhlillərimizdə olduğu kimi özünü aydın şəkildə göstərir, şübhəsiz, bunlarda da ulusun tarixən keçib gəlmiş olduğu yaşantılar var, sadəcə, ifadəsi, deyiliş tərzi fərqlidir.

"Məsumları Tanrı söylədür" (2, 163).

Bu məsəlin, baxışın kökündə Tanrıçılıq dursa da, Allahçılıq təsirinin daha çox olduğu görünür. Məsumluğun – günahsızlığın Tanrı himayəsində - qoruması altında olması təsəvvürü – İslam Allahçılığı dönəmində ardıcıl obrazlaşır, təsir gücünü yarada bilir.

Belə ümumiləşdirmək olar: məsəlin mayasında duran baxış indiki mənanı ifadə etməyib. Allahla bağlı təsəvvürlər artdıqca formalaşan ifadələrdən biri bu cür olub. Sadəcə, Allah məzmunu Tanrı obrazında təqdim olunub.

"Gögə dirək yoq" (2, 58).

Bu məsəlin mayasında Tanrıçılıq təsəvvürü var, ancaq itməkdədir, yerini İslamdan gələn Allahçılıq baxışı tutub. Türk düşüncəsində Tanrı təbiətdəki hər şeyi mənalandırır, burada göy obrazının ayrıca yeri var. Türk Tanrıçılığında isə Göy – ucalıq, Tanrının mövcud olduğu əsas ünvanlardan biri kimi anlaşılır.

"Vermək – Tanrı verməsidir" (2, 167)

Tanrının səxavətcilliyinə, tükənməzliyinə inam ifadə olunur.

"Var ol kişiyə kim, Allahdan hidayət olmaya" (2, 168).

Ardıcıl ayaqda qalan, yıxılmayan, həqiqətini tapan, həqiqətlə yaşayan insanla bağlı deyilib. Məsəlin kökündə Tanrıçılıq baxışı durur. İfadənin mayasında insanın özgürlüyünün (müstəqilliyinin) durması, çətinliklərdən keçməsi, çıxış yolunu özünün tapması sezilir.

"Vay ol kişiyə kim, Tanrıdan qorqmaya" (2, 168).

Göründüyü kimi, məsəli tərəddüdsüz olaraq Tanrıçılıq dövrünün məhsulu saymaq olar. Əgər Allah obrazı mahiyyətcə qorxuzursa, Türk Tanrıçılığında belə bir hal, keyfiyyət yoxdur, əksinə, qorxusuzluğa kökləyir. Habelə əcdad türkün dünya yaradılışında iştirakı onun Tanrılığını təsdiq edir. Bu düşüncə Əcdadın özünü daha dərindən tanımasını, özünün ilahi-insani imkanlarının üzə çıxarmasını yaradır.

"Hər kişiyi hal ilə Tanrısı bilür" (2, 169).

Burada isə Tanrının əcdada münasibəti tam aydınlaşır: Tanrı türkə, Türk Tanrıya doğmadırlar, iç-içədirlər. Türk Tanrısını tanıdığı, sevdiyi dərəcədə Tanrı da Türkü tanıyır, sevir...

Dində Allah insana – bəndəyə "Şah damarından da yaxındır", ancaq doğma deyil, çünki onu qorxuzur. Qorxuzulan yerdə, ünvanda sevgi olmur, ola bilmir, alınmır.

"Hər nə ki başına gəlirsə, haqdan bil" (2, 170).

Məsəldə alın yazısının qaçılmazlığı önə çəkilir. Tanrıçılıqda isə Türk gedişatın yiyəsidir, baş verən hadisələrin niyəliyi onun üçün sirli qalmır, hünəri və fitri duyumu ilə iştirakçısı olduğu proseslərdə uğur qazanır.

Aşağıdakı deyim yuxarıdakı qənaəti təsdiq edir:

"Hünər candadır" (2, 171).

"Yoqdan Tanrı da bezər" (2, 176).

Bu düşünscənin kökü Tanrıçılıq düşüncəsinin özü qədər qədimdir.

"Yoqludan Tanrı da almaz" (2, 177).

Aşağıdakı məsəllər Türk ruhundan, xarakterindən gələn davranış sistemini təsdiq edir, hamısında türk Tanrıçılığının izləri bu və ya başqa biçimdə özünü göstərir:

Ər olan evdə oturmaz; Borcluyu alımlu udar; Bir işi iki eyləmə (2, 68); Buğday əkmək yoq isə buğda dilin də yoqtur? Bir kişinin adı çıqıncayadək gönü çıqar; Bin ölç, bir kəs (2, 79); Türk ucuz bulduğun murdar sanır; Türkün uşta turur dedigi bir; Türkə yüz vermə kim, cahanı yıqar (2, 80); Türk atının samanı bol gərək; Çoq ağlayan ulusun bulmamışdır (2, 85); Can bustanda bitməz; Haram tatlu olur (2, 90); Xəstə başında uklu oturar (2, 91); Xeyir issün bilür; Dəli başın ayağı ğəribdir (2, 92); Düşmənin ömrü qar ömrü kimi ola (2, 97); Dünyada ölüm olmasa, adam adam əti yerdi (2, 101); Salamat gözləyən varmaz savaşa (2, 107); Sana nə isə banadır (2, 111); Sözü keçənin sözü kəskin qılınc kibidir; Şimdi bir zamandır kiçik böyügə ... ogrədir (2, 113); Sağlıq-sayruluq bizim üçündür (2, 119); Toquz qurda key eşək (2, 120); Tağ nə qədər uca isə üzərindən yol aşar; Əcələ şeytandandır; Aşıq arsız gərək (2, 127); Eşq iradət ilədir; Qonşunun eşəgin iki istə, səninki üç olsun; Qocaları yoxsul bilmə, bay bil; Qapusuz ev olmaz; Qarının-qocanın canı bərk olur (2, 141); Kişi bir uğurdan bayımaz (2, 149); Köpək üni gögə çıqmaz (2, 152); Kiminə tavşan yarar, kiminə qurd yarar (2, 153); Kişiyi qonşıdan sor; Vətən sevmək imandandır, vay ana kim olmaya; Kərəm ərənlərindir (2, 155); Kişi kəndüyə etdigi işi bütün ellər dərilib edəməz; Tağ fuzulluk etdigiçün başından tufan əskik degil (2, 124).

**SONUC.** Araşdırma göstərdi ki, Oğuz atalar sözləri və məsəllərdə Tanrıçılıq görüşləri bu torpaqların köklü-köməcli, əzəli sakinləri olan əcdadlarımızın dünyaya, həyata, təbiətə, insana, özünə münasibətinin yetkin ifadəsi kimi meydana çıxmışdır. Çoxsaylı örnəklər Oğuz insanının mənəvi zəngin, mənalı, özünəməxsus, döyüşkən, ardıcıl yaradıcı, coşğun ruhlu həyatından bitməyən soraqlardır. Oğuz insanı – əcdad dərin müşahidəçidir, yenilməzdir; xarakterinin ötkəmliyi atalar sözləri və məsəllərin ifadəliliyində özünü göstərir. Çox zaman atalar sözləri və məsəllər arasında ölçülər sanki itir, ancaq aydınlıq yoxa çıxmır, müəyyənlik bu və ya başqa biçimdə, məzmunda qalır: atalar sözünə xas hökmlülük, biryolluq, məsəllərə xas aydınlaşdırıcılıq (izahedicilik) çalarları örnəklərin təhlilində hər birinin müəyyənliyini bəlirləməyə imkan verir.

Oğuz atalar sözləri və məsəllərdə Tanrıçılıq görüşləri sonradan tədricən İslam görüşlərinin təsiri altında Allahçı məzmun da kəsb etməyə başlayır. Bu, ayrı-ayrı örnəklərin öncəki məzmunundan ayrılması yox, daha çox adların yenilənməsi kimi də (Tanrı yerinə Allah) özünü göstərir. Ancaq elə örnəklər var ki, Tanrıçılıq görüşlərindən fərqli mahiyyət ifadə etdiyinə görə təbii olaraq onun elə birbaşa İslam dünyagörüşünü ifadə etdiyi aydın olur.

Qədimdən gələn, "Oğuznamə"lərdə yaşayan, bu gün də qismən fərqli şəkildə ulusumuzun gündəlik danışığında rast gəldiyimiz bir çox örnəklərin ilkinlərini yuxarıda haqqında danışdığılmız "Oğuznamə"də, habelə ayrı-ayrı "Oğuznamə"lərdə görürük. Bu yöndə araşdırmaların ardıcıl aparılmasının yeni, gərəkli qənaətlərin ortaya çıxmasına səbəb olacağını düşünürük.

## ƏDƏBİYYAT

1. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.
2. "Oğuznamə". Şərq-Qərb. Bakı: 2006, 216 səh. Tərtib edəni, müqəddimə, lüğət və şərhlərin müəllifi Samət Əlizadə.
3. Hüseynzadə Ə. Oğuznamələrdə tarixi-mifoloji mənəvi irs. AMEA Naxçıvan bölməsinin elmi əsərləri. 2020, №1, 235-239.
4. Rzasoy S. Oğuz mifologiyası (metod, struktur, rekonstruksiya). Bakı: Nurlan, 2009, 363 s.
5. Fərəcova A. "Oğuznamə" eposunun uyğur versiyasında Oğuz Kağan obrazının teoqonik semantikası
6. https://www.aem.az/oguzname-eposunun-uygur-versyasnda-oguz-kagan-obraznn-teoqonk-semantkas